**İcbari sığorta mğqavilǝsi olmadan avtomobili idarǝ etmǝk inzibati mǝsuliyyǝt yaradır**

Xǝbǝr verildiyi kimi, ütǝn ilin sonlarından yeni «İcbari sığortalar haqqında» Qanunun tǝtbiqinǝ başlanılmışdır. Bu qanun ülkǝdǝ daşınmaz ǝmlakın icbari sığortası, avtonǝqliyyat vasitǝsi sahiblǝrinin mğlki mǝsuliyyǝtinin icbari sığortası, daşınmaz ǝmlak sahiblǝrinin mğlki mǝsuliyyǝtinin icbari sığortası vǝ sǝrnişinlǝrin icbari sığortası sahǝsindǝ tǝrǝflǝrin mğnasibǝtlǝrini tǝnzimlǝyir. Oxucularımız bu qanunun tǝtbiqi, icbari sığortanın nüvlǝri vǝ edilǝn üdǝnişlǝr haqda daha ǝtraflı mǝlumat ǝldǝ etmǝk ğzğn redaksiyamıza mğraciǝt ediblǝr. Bu mğraciǝtlǝri nǝzǝrǝ alaraq, «İcbari sığortalar haqqında» Qanunun tǝtbiqi, qanunda ǝksini tapan yeniliklǝr vǝ s. haqda hazırladığımız yazını diqqǝtinizǝ zatdırırıq.

Yeni qanun 4 icbari sığorta növünün aparılması qaydalarını vǝ şǝrtlǝrini müǝyyǝn edir. Ǝvvǝllǝr dǝ tǝtbiq olunan bu sığorta növlǝri İİcbari sığortalar haqqında» yeni Qanunda daha da tǝkmillǝşdirilmiş formada tǝqdim edilir. Yazımızda icbari sığorta növündǝn birinǝ - avtonǝqliyyat vasitǝsi sahiblǝrinin mülki mǝsuliyyǝtinin icbari sığortasına diqqǝt çǝkǝcǝyik.

«İcbari sığortalar haqqında» Azǝrbaycan Respublikasının Qanunu avtonǝqliyyat vasitǝsi sahiblǝrinin mülki mǝsuliyyǝtinin icbari sığortası sahǝsindǝ bir sıra mühüm dǝyişikliklǝri özündǝ ǝks etdirir. Mǝsǝlǝn, ǝvvǝlki qanunda hǝyat vǝ sağlamlığa dǝyǝn zǝrǝrǝ görǝ sığorta mǝblǝği bir hadisǝ üzrǝ 5000 manatdan çox olmamaq şǝrtilǝ, bir fiziki şǝxsin sağlamlığına vǝ ǝmlaka dǝymiş zǝrǝr üzrǝ sığorta mǝblǝği hǝr birinǝ 1000 manat mǝblǝğindǝ müǝyyǝn edilirdi. Ümumilikdǝ, bir sığorta şǝhadǝtnamǝsi üzrǝ sığorta mǝblǝği cǝmi 6000 manat tǝşkil edirdi. Yeni qanuna ǝsasǝn isǝ bu mǝblǝğlǝr hǝyat vǝ sağlamlığa dǝyǝn zǝrǝr üzrǝ, müvafiq olaraq, 50.000 manat vǝ 5000 manat, ǝmlaka dǝyǝn zǝrǝrǝ görǝ dǝ 5000 manatdır. Belǝliklǝ, bir sığorta şǝhadǝtnamǝsi üzrǝ maksimal sığorta mǝblǝği 55.000 manat tǝşkil edir ki, bu da ǝvvǝlki illǝ müqayisǝdǝ 9 dǝfǝ çoxdur. Bu qanun sürücülǝrǝ daha böyük mǝblǝğdǝ tǝminat verdiyindǝn sığortanın mǝblǝği dǝ dǝ ǝvvǝlkindǝn fǝrqlidir. Hazırkı sığorta haqqının baza mǝblǝği 50 manat müǝyyǝn edilmişdir vǝ mühǝrriki 1500 sm3 olan minik avtomobillǝrinǝ tǝtbiq olunur. Avtomobilin mühǝrrikinin hǝcmi artdıqca baza sığorta mǝblǝğlǝrinǝ 1,5-dǝn 5-dǝk ǝmsal tǝtbiq olunur. Avtobuslara münasibǝtdǝ ǝmsal sǝrnişin yerlǝrinǝ görǝ, yük avtomobillǝrinǝ münasibǝtdǝ isǝ onların icazǝ verilǝn maksimum kütlǝsinǝ (ya yükgötürmǝ qabiliyyǝtinǝ gǝrǝ) görǝ dǝyişir. Bu qanuna görǝ növbǝti sığorta müqavilǝsi bağlayan şǝxslǝrin ödǝmǝli olacaqları sığorta haqlarına onların Iqǝza tarixçǝlǝri» dǝ tǝsir göstǝrir. Belǝ ki, qǝza törǝtmǝyǝn sürücülǝrin ödǝdiyi sığorta haqları hǝr il azalır, ilboyu qǝza törǝdǝn vǝ ödǝniş alan digǝr sürücülǝrin ödǝdiyi sığorta haqqı isǝ artırılır.

Sığorta ödǝnişlǝrinǝ gǝlincǝ, yeni qanunla zǝrǝrçǝkǝnlǝr hǝr bir halda zǝrǝrin ǝvǝzini alacaqlar. Lakin bǝzi hallarda - tǝqsirkar sürücü sǝrxoş olduqda, hadisǝ yerini tǝrk etdikdǝ, hadisǝni qǝsdǝn törǝtdikdǝ, avtonǝqliyyat vasitǝsini idarǝ etmǝyǝ hüququ olmadıqda sığortaçı zǝrǝrçǝkǝnlǝrǝ sığorta ödǝnişi verdikdǝn sonra ödǝdiyi mǝblǝğlǝri tǝqsirkar sürücüdǝn tǝlǝb etmǝk hüququna malikdir.

İcbari sığorta şǝhadǝtnamǝsi sürücülük vǝsiqǝsi, texniki pasport vǝ etibarnamǝ kimi daim sürücünün üzǝrindǝ olmalıdır. IYol hǝrǝkǝti haqqında» Qanuna ǝsasǝn, sığortanın olmaması sürücünün avtomobili idarǝ etmǝk hüququnu mǝhdudlaşdırır.

Bildirǝk ki, ölkǝ ǝrazisinǝ tranzit mǝqsǝdilǝ daxil olan xarici ölkǝdǝ qeydiyyata alınmış avtonǝqliyyat vasitǝlǝrinin sahiblǝri ilǝ dǝ müvafiq icbari sığorta müqavilǝlǝri bağlanılır vǝ bu müqavilǝlǝrin müddǝti 1 ay müǝyyǝnlǝşib.

Yeni qanunda bǝzi hallarda DYP tǝrǝfindǝn verilǝn müvafiq arayış olmadan da sığorta ödǝnişi nǝzǝrdǝ tutulur. Bu, qǝza iştirakçılarının sayı 2 olduqda, hadisǝ nǝticǝsindǝ sağlamlığa heç bir zǝrǝr dǝymǝdikdǝ, hǝr iki tǝrǝfin sığortası olduqda, tǝrǝflǝr tǝqsirin kimdǝ olmasına dair hǝmfikir olduqda, ziyanın mǝblǝği 1000 manatdan çox olmadıqda mümkündür.

Müstǝqil Nǝqliyyatçılar İctimai Birliyinin sǝdri Natiq Ǝlǝkbǝrli qǝzetimizǝ açıqlamasında bildirib ki, «İcbari sığortalar haqqında» Qanun qüvvǝyǝ mindikdǝn sonra sürücülǝrin bu mǝsǝlǝ ilǝ bağlı İB-yǝ müraciǝtlǝri xeyli artmışdır. Onun sözlǝrinǝ görǝ, ǝksǝr hallarda müraciǝt edǝn sürücülǝr ǝmlakın könüllü sığortası ilǝ mülki mǝsuliyyǝtin icbari sığortasını qarışıq salırlar. Halbuki bunlar tamamilǝ fǝrqli sığorta növlǝridir vǝ onların sığorta obyektlǝri dǝ, sığorta ödǝnişi istiqamǝtlǝri dǝ fǝrqlidir. N.Ǝlǝkbǝrli deyir ki, sığorta hadisǝsi zamanı birinci halda sığorta ödǝnişi sığorta etdirǝnǝ,

daha sonra isə zərər vurulmuş üçüncü şəxsə verilir. Həmçinin, mülki məsuliyyətin icbari sığorta mğqaviləsi bağlanması üzərində müvafiq nəzarət və məsuliyyət müəyyən edilmişdir. Belə ki, «Yol hərəkəti haqqında» Qanunun 37-ci maddəsinin 1-ci hissəsinin 1-ci bəndinə əsasən yol hərəkətində iştirak edən sürücü digər zəruri sənədlərlə yanaşı, nəqliyyat vasitəsinin sahibinin mülki məsuliyyətinin icbari sığortası müqaviləsinin ölkə qanunvericiliyinə uyğun olaraq bağlanması faktını təsdiq edən sığorta şəhadətnaməsini özündə saxlamalıdır. Mülki məsuliyyətin icbari sığortası barədə müqavilə bağlamadan yol hərəkətində iştirak etmək inzibati məsuliyyət yaradır. İnzibati Xətalar Məcəlləsinin 253-1-ci maddəsinə əsasən müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsi bağlanmamasına görə fiziki şəxslər 10 manat, vəzifəli şəxslər 60-80 manat, hüquqi şəxslər isə 150-200 manat cərimə edilirlər.

Əlavə olaraq onu da deyək ki, sürücülər İcbari Sığorta Bürosunun veb-saytına (www.isb.az) daxil olmaqla, bu sığorta növü üzrə onları maraqlandıran məlumatları əldə edə bilərlər. Büro qanunda nəzərdə tutulmuş icbari sığorta növlərinin həyata keçirilməsi zamanı iştirakçıların qarşılıqlı fəaliyyətini təmin etmək, icbari sığorta növləri ilə əlaqədar qanunvericiliyin və təcrübi işin təkmilləşdirilməsi üzrə təkliflər vermək və digər məsələlərin tətbiqi məqsədilə yaradılıb. Bu sığorta növü üzrə fəaliyyət göstərmək üçün sığortaçı həmin büronun üzvü olmalıdır. Yeri gəlmişkən deyək ki, ölkədə fəaliyyət göstərən 28 sığorta şirkətindən 10-na icbari sığorta növləri üzrə fəaliyyət aparmaq icazəsi verilib. Bunlar, «AXA MBASK» Sığorta Şirkəti ASC, «Alfa Sığorta» ASC, «AtaSığorta» ASC, «Atəşgah» Sığorta Şirkəti ASC, Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti (Azərsığorta), «AzSığorta» ASC, «Xalq Sığorta» ASC, «Paşa Sığorta» ASC, Açıq Səhmdar Cəmiyyəti «Standard İnsurance» Sığorta Şirkəti və «Meqa Sığorta» ASC-dir.

**AYTƏN**